**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№343/2** **14 aprel 2022-ci il**

**Auditorlar Palatasının 2021-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin aparılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 10.3-cü "Auditorlar Palatasının 2021-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili" bəndinin icrası ilə əlaqədar "Ekol Audit" MMC tərəfindən auditi aparılmış "01.01.2021-31.12.2021-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları"na dair Maliyyə və texniki təminat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və texniki təminat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "01.01.2021-31.12.2021-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları" nəzərə alınsın (əlavə olunur).

2. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki:

2.1. Debitor borclarının yığılması və xərclərin səmərəliliyinin artırılması istiqamətində davamlı işlərin aparılmasını təmin etsin.

2.2. Bir ay müddətində üzvlük haqqı üzrə vaxtı ötmüş debitor borcları barədə məlumat hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsin və onların balansdan silinməsini təmin etsin.

3. Palata sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, bir həftə müddətində həmin hesabatın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi və ingilis dili variantının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) göndərilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**